# «Bank Olmayan Kredit Təşkilatı İDK »

## MMC-nin

# H E S A B A T I

2018-ci il

## AUDİTOR PROSEDURALARININ YERİNƏ YETİRİLMƏSİNƏ DAİR HESABAT

Mən, Azərbaycan Respublikası Auditorlar Palatasının SA 138-080832 saylı 09.01.2015-ci il tarixli verdiyi lisenziyasına əsasən fəaliyyət göstərən sərbəst auditor Alıyev Köçəri Əmrah oğlu, Sifarişçi «Bank Olmayan Kredit Təşkilatı İDK» MMC-si ilə bağlanmış 19.03.2018-ci il tarixli 20 saylı müqaviləyə əsasən 01 yanvar 2017-ci il tarixdən 31 dekabr 2017-ci il tarixədək olan dövrün auditini apardım.

Audit yoxlaması 02 aprel 2018-ci il tarixdə başlanıb 04 aprel 2018-ci il tarixdə qurtarıb.

Audit yoxlaması təqdim olunmuş sənədlər əsasında aparıldı. Təqdim edilmiş sənədlərin düzgünlüyünə sifarişçi məsuliyyət daşıyır.

Audit ilə əhatə olunan dövr ərzində «Bank Olmayan Kredit Təşkilatı İDK» MMC-nin maliyyə -təsərrüfat fəaliyyətinə aşağıdakılar cavabdehdirlər.

1. Baş direktor – Əsgərov Əliyar Əsgər oğlu
2. Baş mühasib – Qorçuyev Vilayət Mürsəl oğlu

## II. ƏVVƏLKİ AUDİTİN NƏTİCƏSİ

Əvvəlki 01.01.2016 - 01.01.2017-ci ilədək olan dövrü əhatə etmişdir. Audit zamanı nöqsan və çatışmamazlıq aşkar edilməmişdir.

Audit sərbəst auditor Alıyev Köçəri Əmrah oğlu tərəfindən aparılmışdar.

## III. SİFARİŞÇİ HAQQINDA ÜMUMİ MƏLUMAT

«Bank Olmayan Kredit Təşkilatı İDK» MMC-si Azərbaycan Respublikası Vergilər Nazirliyi kommersiya hüquqi şəxslərinin dövlət reyestrindən çıxarış. Qeydiyyata alındığı tarix 21.04.2011-ci il, Dövlət

qeydiyyat nömrəsi VÖEN 1401969931 Çıxarışın verildiyi tarix 24.12.2012 №-si 1201020032991800 olmaqla qeydiyyatdan keçmişdir.

Nizamnamə fondu – 700.000 manat

Qanuni təmsilçi Əsgərov Əliyar Əsgər oğlu

Təsisçilər və Nizamnamə kapitalında mayaların miqdarı Əsgərov Əliyar Əsgər oğlu - 100%

Hüquqi ünvanı – Bakı şəhəri, Nəsimi r-nu, Alı Mustafayev, ev 1D, mənzil 81.

## IV. PUL VƏSAİTLƏRİ, BANK VƏ KASSA ƏMƏLİYYATLARI

«Bank Olmayan Kredit Təşkilatı İDK» MMC-nin «Rabitəbank»ASC (VÖEN 9900001061, KOD 506399,
SWİFT RBTAAZ22, m/h AZ61NABZ01350100000000006944,
H/h AZ19RBTA00370901009440066894, VÖEN 1401969931,
SWİFT:BİK RBTAAZ22 manatla hesablaşma hesabı vardır.

01.01.2017-ci il tarixdə cəmiyyətin hesablaşma hesabında 5328 manat 83 qəpik qalıq olmuşdur.

Auditlə əhatə olan dövr ərzində hesablaşma hesabına mədaxili 1072394 manat 29 qəpik olmuşdur, məxaric 1071631 manat 72 qəpik olmuşdur.

01.01.2018-ci ilə qalıq 6091 manat 40 qəpik olmuşdur.

01.01.2017-ci il cəmiyyətin kassasında qalıq 141903 manat 34 qəpik olmuşdur. 2017-ci ildə cəmiyyətin kassasına 744325 manat 77 qəpik mədaxil, 517373 manat 87 qəpik məxaric olmuşdur.

01.01.2018-ci il tarixə cəmiyyətin kassasında 368855 manat 24 qəpik qalıq qalmışdır.

## V. HESABLAŞMA VƏ KREDİT ƏMƏLİYYATLARI

Audit ilə əhatə olunan dövr ərzində cəmiyyət büdcə və büdcədənkənar fondlara, habelə müəssisə və təşkilatlara debitor və kreditor borcları hesablanmışdır.

Sosial Müdafiə Fonduna hesablanmışdır 27496 manat 43 qəpik.

Gəlir vergisi hesablanmışdır 13331 manat 36 qəpik.

Mənbədən vergi hesablanmışdır 13440 manat.

Əmlak vergisi hesablanmışdır 1143 manat 20 qəpik.

## VI. İSTEHSAL VƏ MƏHSUL SATIŞI VƏ YA GÖRÜLMÜŞ İŞLƏR, GÖSTƏRİLMİŞ XİDMƏTLƏRİ

Auditlə əhatə olunan dövr ərzində yəni 2017-ci ildə «Bank Olmayan Kredit Təşkilatı İDK» MMC-nin ümumi gəliri 352822 manat 59 qəpik olmuşdur.

Faizdən gələn gəlir - 298954 manat 84 qəpik.

Xidmət haqqı - 5851 manat 73 üəpik..

Dəbbə pulu - 7404 manat 99 qəpik.

Əsas vəsaitin satışından gəlir 10418 manat 63 qəpik

Əvvəl gəlirdən çıxılmış ehtiyatlar azaldılmasından gəlir 30192 manat 40 qəpik

## VII. ƏSAS VƏSAİTLƏR

«Bank Olmayan Kredit Təşkilatı İDK» MMC-nin əsas vəsaitlərinin ilin əvvəlinə qalığı 124806 manat 25 qəpik.

Köhnəlməsi 25090 manat 90 qəpik.

Satılıb 5081 manat 37 qəpik.

Alınıb 9200 manat.

01.01.2018-ci ilə qalıq dəyəri 103833 manat 98 qəpik.

## VIII. MAL-MATERİAL DƏYƏRLƏRİ

Cəmiyyətdə mal-material dəyərləri yoxdur.

## IX. ƏMƏK VƏ ƏMƏK HAQQI

Audit ilə əhatə olunan dövr ərzində yəni 2017-ci ildə əmək haqqı hesablanmışdır 124983 manat 86 qəpik, ödənilmişdir 124983 manat 86 qəpik.

İşçilərin sayı 17 nəfər.

## X. İSTEHSAL XƏRCLƏRİ VƏ MAYA DƏYƏRİ

2017-ci ildə «Bank Olmayan Kredit Təşkilatı İDK» MMC-nin iş görülməsi və xidmət göstərilməsi üzrə xərcləri aşağıdakılardır.

| | | |
|---|---|---|
| 1. | Sosial müdafiə 22% | 27496 manat 43 qəpik |
| 2. | Əmək haqqı | 124983 manat 86 qəpik |
| 3. | İcarə haqqı | 96000 manat. |
| 4. | Rabitə | 5329 manat 73 qəpik |
| 5. | Qaz xərci | 2611 manat |
| 6. | Bank xidməti | 1128 manat 10 qəpik |
| 7. | Borca görə faizlər | 127691 manat 01 qəpik |
| 8. | Köhnəlmə | 25090 manat 90 qəpik |
| 9. | Yanacaq | 8391 manat 65 qəpik |
| 10. | İşçilərin sığortası | 894 manat 60 qəpik |
| 11. | Mühafizə xərci | 3300 manat |
| 12. | Digər xərclər | 3966 manat 39 qəpik |
| 13. | Əmlak vergisi | 1143 manat 20 qəpik |
| 14. | Sair xərclər | 34820 manat 86 qəpik |
| | **Cəmi:** | **462847 manat 73 qəpik** |

## XI. MƏNFƏƏT FONDLAR VƏ EHTİYATLAR

«Bank Olmayan Kredit Təşkilatı İDK» MMC 2017-ci ildə zərərlə işləmiş və əldə olunmuş zərər 132819 manat 45 qəpik olmuşdur.

## XII. KAPİTAL (SƏRMAYƏ) QOYULUŞLARI

««Bank Olmayan Kredit Təşkilatı İDK» MMC-nə kapital qoyuluşu olmamışdır.

## XIII. MÜHASİBAT UÇOTU VƏ HESABATLARIN VƏZİYYƏTİ

Cəmiyyətlə mühasibat uçotu jurnal-order formasında aparılır.

Mühasibat uçotu qanunvericiliklə müəyyən edilmiş qaydada apırılır. Hazırkı audit zamanı mühasibat uçotunun aparılmasında ciddi nöqsanlar və çatışmamazlıqlar aşkar edilmədi.

Ortaya çıxan mübahisəli məqamlar dərhal müzakirə edilirdi və aradan qaldırılırdı.

## XIV. AUDİT NƏTİCƏSİ ÜZRƏ TƏKLİFLƏR

Audit nəticəsi üzrə cəmiyyətin daha da səmərəli işləməsi, vaxtlı-vaxtında vergi hesablanması, və büdcəyə ödənilməsi, icarə haqqının azaldılması, mənfəətin bölüşdürülməsi təsisçinin qərarına əsasən aparılması tövsiyə olunur.

## XV. HESABATA İMZA EDİLMƏSİ

Hesabata imza etdik:

1. Sərbəst auditor K. Ə. ALIYEV

2. Baş direktor Ə. Ə. ƏSGƏROV

4. Baş mühasib V. M. Q ORÇUYEV

**SƏRBƏST AUDİTOR**

**ALIYEV KÖÇƏRİ ƏMRAH OĞLU**

# MÜSTƏQİL AUDİTORUN HESABATI (RƏY)

**"Bank Olmayan Kredit Təşkilatı İDK " MMC-nin rəhbərliyinə**

Mən **"Bank Olmayan Kredit Təşkilatı İDK" MMC-nin** 31 dekabr 2017-ci il tarixinə maliyyə vəziyyəti, mənfəət və zərər, məcmu gəlirlər, kapitalda dəyişikliklər və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti haqqında hesabatından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini apardım.

Hesab edirəm ki, əlavə edilmiş maliyyə hesabatları MMC-nin 31 dekabr 2017-ci il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir (*və ya düzgün və ədalətli təsəvvür yaradır*).

Audit təqdim olunmuş sənədlər əsasında aparılmışdır.

Təqdim olunmuş sənədlərin düzgünlüyünə təsərrüfat subyektinin rəhbərliyi məsuliyyət daşıyır.

**Rəy üçün əsaslar**

Mən auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışam. Bu standartlar üzrə mənim məsuliyyətim əlavə olaraq hesabatım "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsindədir. Mən Azərbaycan Respublikasındakı maliyyə hesabatlarının auditinə aid olan etik normaların tələblərinə uyğun olaraq MMC-dən asılı deyiləm və mən digər etik öhdəliklərimi bu tələblərə uyğun yerinə yetirmişəm. Mən hesab edirəmki, əldə etdiyim audit sübutları rəyimi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının BAS (Beynəlxalq maliyyə hesabatları standartlarına) uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik MMC-ni ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik firmasının fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər MMC-nin maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Mənim məqsədim maliyyə hesabatlarında, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyim daxil olan auditor hesabatını tərtib etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermirki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkarlayır. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

Sərbəst auditor: K.Ə.Alıyev

M.Y.

Bakı şəhəri, Nizami k, №102
Mob: (050) 372 18 53

05.04.2018